

*Tahir*
*ƏLƏKBƏRLİ*

*(Vətən ruhlu şeirlər)*

## Ömrümüzə bir bəzəkdir, bu torpaq

Müqəddəsdir vətənimin torpağı
İstəməmək silsin bircə yarpağı
İstərəm xoş olsun, vətən növrağı
Ömrümüzə bir bəzəkdir, bu torpaq.

Hərqarışı bizə doğma, əzizdir
Yetirdiyi nemətlər ilə əzizdir
Suyu safdır, birincidir, təmizdir
Ömrümüzə bir bəzəkdir, butorpaq.

Yeraltında, yerüstündə qızıl var
Vətən darda, ürəyimi sızıldar
Bu torpağı mən istədim bəxtiyar
Ömrümüzə bir bəzəkdir, bu torpaq.

Bu torpaqlar bizə qalib babadan
Arxa olsun, bu torpağa, Yaradan
Hamılıqla biz hayqıraq ucadan
Ömrümüzə bir bəzəkdir, bu torpaq.

*22. 09. 2020-ci il*

## Çünki Vətən müqəddəsdir, əzizdir

Yer üzündə gəzsən bütün qitəni
Göz oxşasa yeri, göyü, çəməni
Canidildən sevəcəyik Vətəni
Çünki Vətən müqəddəsdir, əzizdir.

Vətənimin göz oxşayan çölü var
Dənizi var, meşəsi var, gölü var
Bu Vətəndə biz olarıq bəxtiyar
Çünki Vətən müqəddəsdir, əzizdir.

Hər qarışı göz oxşayır Vətənin
Cənnətidir bu ölkəmiz qitənin
Göz dağıdırAzərbaycan düşmənin
Çünki Vətən müqəddəsdir, əzizdir.

Bu ölkəyə oğulları dayaqdır
Gecə-gündüz səngərdədir, oyaqdır
Düşmənimiz qısa vaxta qonaqdır
Çünki Vətən müqəddəsdir, əzizdir.

Millətimdir yer üzünün incisi
İnsanların canların incisi
Azərbaycan bu dünyanın incisi
Çünki Vətən müqəddəsdir, əzizdir

*22. 09. 2020-ci il*

## Belə sevdim, mən Vətəni

Vətən mənim ürəyimdə
Belə sevdim, mən Vətəni
Əməlimdə, diləyimdə
Belə sevdim, mən Vətəni.

Göy-gölü var, Xəzəri var
Xəbislərin nəzəri var
Vətənimin qədəri var
Belə sevdim, mən Vətəni.

Göz oxşayan guşəsi çox
Dənizi bir, meşəsi çox
Bu dünyanın işvəsi çox
Belə sevdim, məm Vətəni.

Vətən bizim ürəyimiz
O, suyumuz, çörəyimiz
Ölsək belə, gərəyimiz
Belə sevdim, mən Vətəni.

Sevgisi var ürəyimdə
Dadı, duzu çörəyimdə
Ömür boyu gərəyimdə
Belə sevdim, mən Vətəni.

Bu dünyanın düzəni var
Sevəni var, bezəni var
Haqq, ədalət gəzəni var
Belə sevdim, mən Vətəni.

Var öləni, var itəni
Var sökəni, var tikəni
Sevməmək olmaz Vətəni
Belə sevdim, mən Vətəni.

Vətən mənim canımdadır
Damarımda, qanımdadır
Ürəyimdə, ruhumdadır
Belə sevdim, mən Vətəni.

*24. 09. 2020-ci il*

## Ay ermeni

Tarixini bir varağla
Hardan gəlib, kim olmusan?
Qohumunu gəl sorağla
Hardan gəlib, kim olmusan?

İllərlədir dilənisran
Hara gəldi sülənirsən
Kimə belə güvənirsən?
Hardan gəlib, kim olmusan?

Girirsən sən dondan-dona
Millətləri yığıb cana
Qalacaqsan yana-yana
Hardan gəlib, kim olmusan?

Şərəfsizin biri sənsən
Ölüsən sən, dirisən sən
Görüm heç vaxt gülməyəsən
Hardan gəlib, kim olmusan?

Bu fikirdən siz daşının
Təmizlənin, bir aşının
Bu torpaqdan tez daşının
Hardan gəlib, kim olmusan?

Sonra peşman olacaqsan
Arxasız, tək qalacaqsan
Boynu bükük duracaqsan
Hardan gəlib, kim olmusan?

*26. 09. 2020-ci il*